# Bir kitabın izi ilə...



*“Xalq gərək daim öz kökünü, tarixini xatırlasın. Tariximizin hər səhifəsi bizim üçün əzizdir. Tarixi olduğu kimi qəbul etmək, dərk etmək, olduğu kimi qiymətləndirmək lazımdır”.*

*Ümummilli lider Heydər Əliyev*

**Bu dünyada hər şey özünü ifadə anlayışı üzərində qurulub. Elm-texnika, ədəbiyyat, incəsənət, idman, siyasət və hətta müharibə, terror, cinayətlər belə özünü ifadə nəticəsində yaranıb. Hələ ibtidai insanlar özünü ifadə etmək üçün daşlara müxtəlif şəkillər çəkirdilər. Duyğu və düşüncələri bölüşmək üçün nitq yarandı. Nitqin yaranması isə əvvəlcə şifahi ədəbiyyatı, əlifbanın yaranması isə yazılı ədəbiyyatı yaratdı.Yazı yarandıqdan sonra isə insan ruhu əbədilik qazandı.**

**Salınmış şəhərlər, möhtəşəm abidələr, körpülər, yollar insanın ölməz yaradıcı ruhunun ifadəsidir. Ancaq hər şeyin ömrü var. İnsanını yaratdığı hər şey zamanın tufanından keçə bilmir, dağılıb tökülür. Yerində kədərli boşluqdan başqa bir şey qalmır. Lakin əbədi qalan yazılmış sözdür. Ona görə ki, söz insanın ruhunda yaranıb, qəlbindən süzülür.**

Həyatda nə baş verir versin baş verən hər bir hadisə ədəbiyyat və incəsənət üçün mövzudur. Əgər yer üzündə bir tufan qopsa, hər şeyi silib aparsa, yalnız dünyada bircə insan qalsa, o yenə də gördüklərini daşlara, qayalara yazacaq və beləliklə də, ədəbiyyat yenidən başlayacaq.

Yazılmış hər bir kitab bir insanını dünyasıdı. Biz bu kitabları oxuduqca o dünyaları kəşf edirik, o dünyalara daxil olub, öz dünyamızı zənginləşdiririk.

Etiraf edək ki, ölkəmizdə son 35-40 ildir ki, kitaba maraq çox aşağı səviyyədədir. Qeyd edim ki, kitab oxuma səviyyəsinə görə mütəxəsislərin hazırladığı100 ölkənin adı olan sıralamada, dünyada ən zəngin ədəbi mirasa sahib olan, şair və yazıçılarının əsərləri dünya kitabxanalarının ən mötəbər mərtəbələrində də qorunan bir millət olaraq - adımızın olmaması əslində böyük bir mənəvi iflasdır. Çox böyük təəssüflə qeyd etmək istəyirəm ki, bu siyahıda Rusiya axırdan 10-cu yerdə, Gürcüstan 8-ci yerdə, Ermənistan isə 3-cü yerdə dayanır.

Mən inanıram ki, bu məqaləni oxuyan bəzi oxucular məsələni iqdisadi çətinliklərə, ekonomik krizlərə, həyat şərtlərinə, televiziya və internetə bağlayacaqlar. Əlbəttə bizim məqsədimiz bu məsələ ilə bağlı sizinlə nə mübahisə açmaq, nə də kimisə tənqid etməkdir. Ancaq bütün bu bəhanələrə bir neçə cümlə ilə cavab vermək istəyirəm.

Yuxarıda qeyd etdim ki, bizim çox zəngin bir mədəniyyətimiz var ki, dünya buna heyrandır. Və bu zənginliyin əsasını da ədəbiyyatımız təşkil edir. Bu zənginliyi isə ən çətin həyat şərtlərində yaşayıb yaradan bu xalq yaradıb. Füzulini, Nəsimini, M.Ə.Sabiri və s. unutmayın.

Əziz oxucum, sizə maraqlı bir kitab təqdim edəcəyəm. Bu tədqiqatçı jurnalist Musa Bağırovun “Sərkərdənin taleyi” adlı kitabıdır. "Sərkərdənin taleyi" kitabı Azərbaycan xalqının fəxri, Sovet Ordusunun görkəmli sərkərdəsi, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya generalı Həzi Əhəd oğlu Aslanovun həyatı və onun Böyük vətən müharibəsi illərində keçdiyi şanlı döyüş yoluna həsr edilib. Bu kitabda Həzi Aslanovun 1945-ci ildə müəmmalı ölümü, üstündən 47 il keçəndən sonra 1944-cü ildə ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim olunması ilə bağlı faktlar öz əksini tapıb.

Yazıçının təkbaşına vətənimizin qəhrəman oğlunun tapdanmış haqqının ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının bərpa edilməsi uğrunda uzun illər boyu böyük çətinliklərlə apardığı inadlı mübarizəni böyük bir emosiya ilə təsvir etdiyi səhifələri həyacansız oxumamaq mümkün deyil.



СОЮЗ СОВЕТСКИХ СОЦИАЛИСТИЧЕСКИХ РЕСПУБЛИК

ГРАМОТА

ГЕРОЮ СОВЕТСКОГО СОЮЗА



Bu dəyərli kitabı vərəqlədikcə, dastanlara sığmayan bir qəhrəmanlıq barədə axtarışları, ömrünün mənasına çevirən, adi bir vətəndaşın, sadə bir jurnalistin, təkbaşına tarixin uçub dağılmış toz - torpağı altından böyük çətinliklərlə tapıb çıxardığı həqiqətləri, çəkdiyi əziyyətləri, bu yolda millətimizin tarixi düşmənləri ilə apardığı inadlı mübarizəni və ən böyük ermənipərəst SSRİ-nin prezidenti M.Qorboçova, H.Aslanovun 2-ci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi barədə fərmanı imzalatması oxucunun qəlbində böyük bir qürür, heyrət və rəğbət hissi oyadır.

Və nəhayət, generalın müəmmalı ölümü barədə - qəhrəmanın bizə uzun illər boyu anladıldığı kimi döyüş meydanında yox, xaincəsinə hərbi hissənin həyatində, öz ərazimizdən atılan top atəşi ilə ağır yaralandığını, yaralandıqdan sonra 22 saat sağ qaldığını, onu Moskvaya aparacaq olan təyyarənin, o yatan evin arxasında dayanmasına baxmayaraq, havaya qalxması barədə əmrin gəlməməsi haqda yazılanlar, bu cinayətin baş şübhəlisi olan 1-ci Pribaltika cəbhəsinin komandanı xain İ.Baqramyana və bu işdə əli olan hər kəsə qarşı oxucunun qəlbində bir daha dərin nifrət və qəzəb hissini alovlandırır.

Hörmətli oxucum, bir faktı da qeyd etmək istəyirəm ki, bu məqaləni Musa Bağırovun “Sərkərdənin taleyi” kitabına həsr etməyimiz təsadüf deyil.

Son illərdə Böyük vətən müharibəsi mövzusu və onun əfsanəvi qəhrəmanları arxa planda qalıb. Hətta Böyük vətən müharibəsini - Bu bizim müharibəmiz, bizim savaşımız deyildi - deyib yarğılayanlar da var. Amma əslində bu elə bizim müharibəmiz idi. Hitlerin “Edelveys” planı Qafqazı işğal edib Bakı neftini ələ keçirmək idi.

Bu müharibədə 10000-i qadın olmaqla 700000 azərbaycanlı iştirak edib. Onlardan 360000 həlak olub. 41 nəfər isə Sovet ittifaqı qəhrəmanı adına layiq görülüb. Müharibənin əsas dönüm nöqtəsi olan Stalinqrad döyüşündəki qələbədə H.Aslanov və onun 55-ci tank briqadasının çox mühüm xidməti olub. H.Aslanovun 55-ci tank briqadası Stalinqrad-Salski dəmiryolunu tutub almanları silah-sursat, canlı qüvvə daşıdıqları magistraldan məhrum ediblər. Bu döyüşdə düşmənin bir batalyon canlı qüvvəsini, 30 tank və 50 avtomobilini sıradan çıxarıblar. Elə buna görə H.Aslanov 1942-ci il 22 dekabrda Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

Berlinə ilk daxil olan əfsanəvi 416-cı diviziyanın şəxsi heyəti azərbaycanlılardan ibarət idi. Reyxstaqa bayrağı taxan da azərbaycanlılar olub. Bütün Qafqazda ilk Sovet ittifaqı qəhrəmanı da azərbaycanlı İsrafil Məmmədov idi. Siz deyin, bu bizim müharibəmiz deyildi, bəs kimin müharibəsi idi? Onlar bizim qəhrəmanlarımız, bizim ideallarımız idi. Cəsarət, mərdlik və qəhrəmanlığı biz onlardan miras aldıq. Onların əziz xatirəsi hər zaman qəlbimizdə yaşayacaq.

Tədqiqatçı yurnalist M.Bağırovun “Sərkərdənin taleyi” kitabı bir çox müəlliflərin ilham mənbəyi oldu. Bu kitab əsasında bir neçə əsərlər yazıldı. Belə əsərlərdən biri də müasir Azərbaycan poeziyasının tanınmış simalarından olan əməkdar mədəniyyət işçisi, hərbçi-şairə, vətənpərvər xanım Zəminə Xınalının “Qəhrəman Həzi” adlı poeması dır:

***Vətəndən uzaqda, qərib ellərdə***
***Adına ehtiram olunur, Həzil***
***Heykəlin önündə çiçəklər açır,***
***Xatirən əbədi qorunur Həzil***
***Ellər öz oğlunu xatırlayanda***
***Beləcə düşünür həmin o, anda.***
***- Sən dünən, bu gün də***
***məğrursan Həzil***
***Şərəfsən, şöhrətsən,***
***qürursan Həzil***
***Sən uca dağ kimi əzəmətlisən***
***Gözümüz önündə durursan Həzil***
***Qafqaz dağlarından***
***parlayan Günəş.***
***Sən Ana yurdumun al səhərisən.***
***Şanlı qələbənin xoş müjdəsisən***
***Sən Odlar Yurdunun qəhrəman***
***oğlu***
***Qəhrəman Həzisən!***
***Qəhrəman Həzil***

Əziz kitab sevərlər, inanıram ki, tədqiqatçı jurnalist M.Bağırovun “Sərkərdənin taleyi” adlı kitabı sizin də kitab rəfinizi zənginləşdirəcək.

***Gülxar MƏMMƏDOVA***
***Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşı***